EUROPEAN COMMITTEE FOR THE PREVENTION OF TORTURE AND INHUMAN OR DEGRADING TREATMENT OR PUNISHMENT (CPT)

COUNCIL OF EUROPE
75
1949 - 2024
CONSEIL DE L'EUROPE

CPT/Inf (2024) 24

# Azərbaycanla bağlı ictimai bəyanat

Bu ictimai bəyanat işgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında Avropa Konvensiyasının 10-cu maddəsinin 2-ci bəndinə əsasən verilir.

Strasburq, 3 iyul 2024-cü il

# Azərbaycanla bağlı ictimai bəyanat

Komitənin yaradılması haqqında Konvensiyanın
10-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq
işgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə
Avropa Komitəsinin 114-cü plenar iclasında (iyul 2024-cü il) qəbul edilmişdir

## *Giriş sözü*

1. İşgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi (CPT) məhkəmədənkənar qabaqlayıcı mexanizmdir və onun vəzifəsi azadlıqdan məhrumetmə yerlərinə baş çəkmək yolu ilə bu kimi müəssisələrdə saxlanılan şəxslərlə rəftarın araşdırılması və zəruri hallarda həmin şəxslərin işgəncələrdən, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzadan müdafiəsinin gücləndirilməsidir. Mexanizm çərçivəsində fəaliyyəti həyata keçirərkən CPT və səlahiyyətli dövlət orqanları Konvensiyadan irəli gələn tələblərə əsasən bir-biri ilə əməkdaşlıq etmək üçün öhdəlik götürürlər.[1]

2. 2002-ci ildən etibarən CPT Azərbaycana 13 səfər həyata keçirmişdir. Bu günədək səfərlərdən 11-i ilə bağlı hesabatlar və cavablar dərc edilmişdir. Azərbaycan Hökuməti 2020 və 2022-ci illərdə həyata keçirilən səfərlərlə bağlı ən son hesabatların dərcinə icazə verməyib.[2]

3. Artıq 20 ildən artıqdır ki, CPT hüquq-mühafizə orqanlarında, xüsusən də Daxili İşlər Nazirliyinin tabeliyində olan qurumlarda saxlanılan şəxslərlə rəftarla bağlı bir sıra məsələlərlə dair öz dərin narahatlığını ardıcıl olaraq bildirməkdədir.

Komitə öz hesabatlarında dəfələrlə Azərbaycan Hökümətinin diqqətini ona yönəldib ki, Komitənin yaradılması haqqında Konvensiyanın 3-cü maddəsində qeyd olunduğu kimi İştirakçı Dövlətlər və CPT arasında əməkdaşlıq prinsipi CPT-nin tövsiyələrini nəzərə almaqla vəziyyəti yaxşılaşdırmaq istiqamətində qətiyyətli addımların atılmasını tələb edir.

Təəssüflər olsun ki, Komitənin 2020 və 2022-ci illərdə Azərbaycana ən son səfərləri zamanı CPT-nin nümayəndə heyətləri bu istiqamətdə fəaliyyətin davamlı olmamasının şahidi olub və Komitənin uzun illər əvvəldən verdiyi əsas tövsiyələrin yerinə yetirilməmiş və ya qismən yerinə yetirilmiş olduğunu qeydə alıb.

## *Əməkdaşlığın mövcud vəziyyəti və dərin dialoqa ehtiyac*

4. 2022-ci ilin dekabrında həyata keçirilən xüsusi səfərlə bağlı Azərbaycana dair ən son hesabatında CPT 2020-ci ildəki səfəri zamanı aşkar etdiyi vəziyyətlə müqayisədə baş çəkdiyi iki həbsxanada bir sıra mühüm irəliləyişləri müşahidə etməkdən məmnun qalmışdır. Bu hal Azərbaycan Hökümətinin azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın yaxşılaşdırılması üçün həqiqətən qərarlı olduqda əhəmiyyətli irəliləyiş əldə edə bilməsinin mümkünlüyünü bariz şəkildə nümayiş etdirir.

Sözügedən halın tam əksi olaraq, Daxili İşlər Nazirliyinin tabeliyində olan müəssisələrdə saxlanılan şəxslərlə rəftara dair Komitənin uzun illərdən bəri verdiyi əsas tövsiyələrinin heç biri praktiki olaraq yerinə yetirilməyib. Əslində, Komitə 2022-ci il xüsusi səfəri ilə bağlı hesabatında qeyd etmişdir ki, “Azərbaycanda polis tərəfindən fiziki pis rəftarın (o cümlədən, bir sıra hallarda işgəncə hallarının) geniş şəkildə yayılmasına dair uzun illər ərzində nəzərə alınmayan tövsiyələrinin icrası ilə bağlı irəliləyişin faktiki olmamasından son dərəcə narahatdır.” Bu müşahidələr göstərir ki, hesabatda demək olar ki, eyni vəziyyətin təsvir edildiyi 2020-ci il səfərindən sonra heç bir irəliləyiş baş verməyib.

---

1. İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Konvensiyasının (bundan sonra “Konvensiya” adlandırılacaq) 1 və 3-cü maddələri.

2. Bu səfərlərə dair hesabatlar və dərc edilməsinə icazə verilmiş Hökumətin müvafiq cavabları CPT-nin internet saytında mövcuddur: https://www.coe.int/en/web/cpt/azerbaijan.

5. Münasibətlərdə yaranan hazırki acınacaqlı vəziyyəti nəzərə alaraq CPT Komitənin 3-7 iyul 2023-cü il tarixlərində keçirilmiş 111-ci plenar iclasında Konvensiyanın 10-cu maddəsinin 2-ci bəndində göstərilən proseduru açmaq qərarına gəldi. məlumatlandıran məktub. Bu qərara dair Azərbaycan hakimiyyətinə məktub 4 avqust 2023-cü ildə göndərilib.

6. CPT üçün 10-cu Maddənin 2-ci bəndinin açılması proseduru səlahiyyətli dövlət rəsmilərlə yüksək səviyyəli danışıqlar və məqsədyönlü xüsusi səfərlər də daxil olmaqla, narahatlıq doğuran məsələlərin həlli üçün aidiyyati qurumlarla daha intensiv dialoqa səbəb olur. Müvafiq olaraq, CPT Azərbaycan hakimiyyətini məlumatlandırıb ki, Komitə Hökümətdən uzun illər ərzində verdiyi tövsiyələri yerinə yetirməkdə qətiyyətli olduğunu inandırıcı şəkildə nümayiş etdirəcəyini və hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən saxlanılan şəxslərə qarşı pis rəftar təcrübəsinə son qoymaq üçün addımlar atacağını gözləyirlər.

7. CPT həmçinin polis nəzərəti altında saxlanılan şəxslərlə rəftarla bağlı Komitənin tövsiyələrinin icrasını müzakirə etmək üçün Komitə prezidentinin rəhbərlik etdiyi CPT nümayəndə heyəti ilə Azərbaycan Hökumətinin müvafiq rəsmiləri arasında yüksək səviyyəli danışıqların aparılmasını təklif etmişdir.

Azərbaycan Höküməti təklifə müsbət cavab vermiş və danışıqların Bakıda 30 və 31 yanvar 2024-cü il tarixlərində keçirilməsi nəzərdə tutulmuşdu. Bununla belə, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin etimadnaməsini ratifikasiya etməmək barədə qərarından iki gün sonra, 26 yanvar 2024-cü il tarixində səlahiyyətli qurumlar heç bir səbəb gətirmədən CPT-yə yüksək səviyyəli danışıqların ləğv edildiyinə dair məlumat vermişdirlər.

8. AŞPA-nın yuxarıda qeyd olunan qərarı hüquqi cəhətdən heç bir halda Azərbaycanın Komitə ilə əməkdaşlıq üzrə CPT-ni tənzimləyən Konvensiyaya uyğun olaraq öhdəliklərinə dəyişiklik kimi qəbul edilə bilməz. Eynilə, sözügedən qərarın Komitənin Azərbaycan Hökuməti ilə əməkdaşlıq etmək vəzifəsinə heç bir təsiri yoxdur.

Komitə Azərbaycan Hökuməti ilə konstruktiv dialoq aparmaq üçün səylərini davam etdirib. 29 aprel 2024-cü il tarixli məktubla CPT Prezidenti, rəsmi olaraq Azərbaycan Hökuməti ilə yüksək səviyyəli danışıqların 11 iyun 2024-cü il tarixində Bakıda keçirilməsini təklif etmişdir. Göndərilən məktubda Prezident, Komitənin 2024-cü il iyulun 1-dən 5-dək keçiriləcək 114-cü plenar iclasında Azərbaycanla bağlı 10-cu maddənin 2-ci bəndinin davam edən prosedurunun növbəti mərhələlərinin müzakirə olunacağını qeyd etmişdir. O, bir daha vurğulamışdır ki, “səlahiyyətli qurumlarla CPT arasında davam edən dialoq çərçivəsində CPT-yə yenilənmiş məlumatları təmin etmək və CPT-nin tövsiyələrinin yerinə yetirilməsi ilə bağlı öz fikirlərini bildirmək üçün Azərbaycan hakimiyyətinə imkanının verilməsi çox vacibdir. Bundan əlavə, yüksək səviyyəli danışıqların nəticəsi CPT-yə yuxarıda qeyd olunan 10-cu maddənin 2-ci bəndinin proseduruna əməl olunması ilə bağlı məlumatlı və obyektiv qərar qəbul etməyə imkan verməlidir”.

Təəssüf ki, Azərbaycan rəsmiləri tərəfindən bu məktuba heç bir cavab verilməyib.

***Əməkdaşlıq etməmək***

9. Azərbaycan hakimiyyəti tərəfindən hər hansı cavabın olmamasını nəzərə alaraq, Komitə öz diqqətini polisdə saxlanılan şəxslərlə rəftar üzərində cəmləyərək Azərbaycana ad hoc (xüsusi) səfər etmək qərarına gəlib. 2024-cü il iyunun 4-də Komitənin sədri Azərbaycan hakimiyyətin CPT-nin 11 və 12 iyun 2024-cü il tarixlərində Azərbaycana səfər etmək niyyəti barədə yazılı şəkildə xəbərdar etmiş və səlahiyyətli qurumlardan CPT nümayəndə heyətinin 2024-cü ilin 11 və 12 iyun tarixlərində Azərbaycanda fəaliyyət göstərən azadlıqdan məhrumetmə yerlərinə səfəri üçün lazımi etimadnamələri hazırlamağı xahiş etmişdir.

CPT-nin bu məktubuna hər hansı rəsmi cavab daxil olmamışdır. Əvəzində, 2024-cü il iyunun 7-də Azərbaycan hakimiyyəti Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəliyinin əməkdaşı vasitəsilə Komitəyə məlumat verib ki, onlar, azadlıqdan məhrumetmə yerlərinə səfərlər və ya saxlanılan şəxslərlə konfidensial müsahibə keçirmək imkanın yaradılması da daxil olmaqla, CPT nümayəndə heyətinə ilə hər-hansı əməkdaşlıq etməyə hazır deyirlər. Bundan əlavə, nazirlər və ya yüksək vəzifəli şəxslərlə heç bir görüşə icazə verilməyəcək.

Azərbaycan hakimiyyəti Komitə ilə əməkdaşlıqdan imtina etmək üçün heç bir əsas göstərməyib. CPT səfərinin təxirə salınması ilə bağlı Konvensiyanın 9-cu maddəsinin 1-ci bəndində qeyd olunan əsasların heç birinə istinad edilməyib. Bu, Konvensiyanın, xüsusən də onun 2, 3 və 8-ci maddələrinin açıq şəkildə misilsiz pozulmasıdır.

10. Komitənin 2024-cü il iyulun 1-dən 5-dək keçirilən 114-cü plenar iclasında bu vəziyyəti müzakirə olunub və Konvensiyanın 10-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq ictimaiyyətə açıqlama vermək qərarı verilib.

11. Hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən saxlanılan şəxslərlə pis rəftar və hətta işgəncə ilə bağlı məsələlərin ciddiliyini nəzərə alaraq, Komitə həmçinin bu ictimai bəyanata əlavə olaraq 2022-ci ildə Azərbaycana etdiyi xüsusi səfərlə bağlı hesabatı dərc etməyi qərara alıb.

Azərbaycan hakimiyyəti Komitə prezidentinin məktublarına cavab verməməklə Komitə ilə əməkdaşlıqdan qəti şəkildə imtina etməsi Konvensiyanın əsaslı və misli görünməmiş pozuntusudur.

***Hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən işgəncə və pis rəftarın davamlı təcrübəsi***

12. Komitə hesab edir ki, CPT Azərbaycan hakimiyyətinə Daxili İşlər Nazirliyinin tabeliyində olan Azərbaycan hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza ilə bağlı ciddi substantiv məsələləri həll etmək üçün bütün imkanları verib.

13. Azərbaycanda belə bir vəziyyətin olması yalnız son vaxtlara xas bir hal deyil. Azərbaycan hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən pis rəftar məsələsini həll etmək məqsədilə CPT 2017-ci ilin fevralında və yenidən 2018-ci ilin iyununda Bakıda Azərbaycan hakimiyyəti ilə yüksək səviyyəli danışıqlar aparıb. Bundan əlavə, 18 iyul 2018-ci ildə Azərbaycan tərəfi altı səfərə dair hesabatların dərcinə icazə verdikdən sonra, CPT bəyan etmişdir ki, polis və digər hüquq-mühafizə orqanları tərəfindən işgəncə və digər fiziki pis rəftar, bütün hüquq-mühafizə sistemində isə korrupsiya və cəzasızlıq sistemli olaraq qalır və geniş vüsət alıb. Hesabatlarda bu problemləri həll etmək və işgəncələrə son qoymaq üçün nəzərdə tutulmuş ətraflı tövsiyələr yer alır. Sonrakı səfərlər zamanı müşahidə olunduğu təqdirdə cüzi irəliləyiş qeydə alınıb.

14. İşgəncənin tətbiqi iyrəncdir və bütün Avropa Şurasına üzv olan dövlətlər onun dövlət nümayəndələri tərəfindən tətbiqinin kökünü kəsmək və baş verdikdə, günahkarları məsuliyyətə cəlb etmək öhdəliyi daşıyırları.
CPT dövlət orqanları tərəfindən azadlıqdan məhrum edilmiş şəxslərə münasibətdə nöqsanları müəyyən edən qabaqlayıcı orqan kimi fəaliyyət göstərir. Komitə İştirakçı Dövlətlərdən onun tövsiyələri əsasında hərəkət etməyi və Komitə ilə konstruktiv dialoq aparmağı tələb edir.

Hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən işgəncə və digər fiziki pis rəftara son qoymaq üçün tədbirlər görməkdən imtina etməklə Azərbaycan hakimiyyəti pis rəftara, o cümlədən işgəncə hallarına dözümlü yanaşdığına işarə verir. Qanunun aliliyi ilə idarə olunan və insan hüquqlarının müdafiəsinə sadiq olan Avropa Şurasının üzv dövləti üçün bu, tamamilə qəbuledilməzdir.

***Gələcəyə baxış***

15. Konvensiyanın 3-cü maddəsində qeyd olunduğu kimi, əməkdaşlıq öhdəliyinin qeyri adı və ciddi şəkildə pozulmasına baxmayaraq, Komitə Azərbaycan hakimiyyətinin konstruktiv dialoqu bərpa etməyə hazır olacağına ümid edir. Prioritet vəzifə Azərbaycanda hüquq-mühafizə orqanlarının nəzərətində olan şəxslərlə rəftarla bağlı CPT-nin çoxillik tövsiyələrinin həyata keçirilməsi olmalıdır. Komitənin həbsxanalarla bağlı tövsiyələrinin həyata keçirilməsində 2022-ci il xüsusi səfəri zamanı müşahidə edilən irəliləyiş göstərir ki, bu, siyasi iradənin olması şərtilə mümkündür.

16. Öz mandatını yerinə yetirmək üçün CPT Azərbaycan hakimiyyəti ilə dialoqu davam etdirməyə tam sadiqdir. Yaranan şəraiti nəzərə alaraq Komitə yaymaq məcburiyyətində qaldığı bu ictimai bəyanatı verməklə Azərbaycan hakimiyyətini, xüsusən də Daxili İşlər Nazirliyini Azərbaycanın Avropa Şurasına üzv dövlət kimi qoşulduğu əsas dəyərlərinə uyğun olaraq qətiyyətli addımlar atmağa həvəsləndirməyə və kömək etməyə ümid edir. Bu kontekstdə Komitənin uzun illərdən bəri verdiyi tövsiyələri Azərbaycan hakimiyyətinə çatışmazlıqları aşkar etmək və lazımi dəyişikliklərin tətbiqində kömək edən yol xəritəsi kimi qəbul edilməlidir.